tularaq "toxmi-məkulat" demək istəmişlər.

"İmza ...": qəzetdə belə getmişdir.

**Azərbaycanda**

səh. 296. "müavini-sədr ...": qəzetdə belə getmiş, sədr müavininin adının yerinə nöqtələr qoyulmuşdur.





**Cümə, 17 oktyabr 1919-cu il, nömrə 298**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 22 məhərrəmül-haram sənə 1338. 17 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

**SİRK "MODERN"**

Cümə günü oktyabrın 17-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Boqatıryov – Staroşvili.

2-nci: Qara Maska tərəfindən üç min manat mükafat: Qara Maska – Oleynikov.

3-ncü: Zakoroyko – Gənc Əli.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Qırmızı Maskanın benefisi hazırlanır.

*11454*

**ELAN**

Hökumət Müfəttişliyi naziri həzrətlərinin 12 həmin oktyabr 1438 nömrə təliqəsinə binaən, bu gündən etibarən Cümhuriyyətimiz daxilində olan ümum gömrükxanaların və əvvəl mərhələdə Ağstafa gömrükxanasının təftişinə şüru etdim. Ümumdan kamali-ehtiramla rica və təmənna edirəm ki, məzkur gömrükxanaya əşya və malların müsadirəsi və hakəza qeyri biqanunluqlar barədə olan şikayətlərini Hökumət Müfəttişliyi Nəzarətinə (dəniz kənarı Mirbabayevin evləri) kitabətən və yaxud və ya şifahən Ağstafa istasyonunda məlum və ixbar etsinlər.

*Dövlət Müfəttişliyi nazirinin*
*xüsusi əmrlər məmuru:*
*Məcnunbəyov.*
*T-290*

**ELAN**

Bununla Azərbaycan Dəmiryol İdarəsi məlum edir ki, Türüq və Məabir nazirinin 919-16/7-ci ildə verdiyi icazənamə üzrə elan olunan gündən Bakı şəhər istasyonu körpüsünə gələn paraxodlardan atidəki xərclər alınacaqdır:

1) 15 min pud yükü və boş olan paraxodlardan sutkada 300 rublə;

2) 40 min pud yükü olan paroxodlardan sutkada 500 rublə;

3) 4 min pud yükü olan lodka, kərəci və barkazlardan sutkada 100 rublə;

4) Dəmiryol ilə gələn yükləri şəhərə gətirən lodkalardan bir vaqondan 150 rublə.

Yuxarıda zikr olunan xərclər Dəmiryol İdarəsi ilə şəraitə girməyən paraxod sahiblərindən alınacaqdır.

*T-285*

## QİSMİ-RƏSMİ [RƏSMİ-HİSSƏ]

**Azərbaycan Cümhuriyyəti Posta və Teleqraf Nəzarətindən**

*12 təşrini-əvvəl [oktyabr]*

*Əmrnamə nömrə 98*

Azərbaycan Posta və Teleqraf nahiyəsi müdirinin avqustun birindən 1918 sənədən 24 nömrəli əmrinə müvafiq, Gəncə posta-teleqrafxana müdirliyi vəzifəsini ifa etməyə təyin olunmuş Əli bəy Ağanəsirov həmin məmuriyyətdə təsdiq olunur təşrini-əvvəl ayının 20-dən.

Dəftərxanamın kargüzarı müavini Sürəyya xanım Sultanov ərizəsinə məbni [ərizəsinə əsasən] təşrini-əvvəl ayının 1-ci günündən qulluğundan xaric olur və həmin məmuriyyət ştatanın az olmasına görə ləğv olunur.

*Əmrnamə nömrə 99*

Dəftərxana məmuru Asiya xanım Vaçnadze mənim dəftərxanama registrator [qeydiyyatçı] məmuriyyətinə təyin olunur.

*Əmrnamə nömrə 100*

1) Sabiq Prişib 4-cü sinif posta-teleqrafxana müdiri Yakov Sestrinski həmin posta-teleqraf idarəsinə müdir təyin olunur.

2) Sabiq Biləsuvar posta-teleqrafxana müdiri Pyotr Vasilyev həmin posta-teleqrafxanaya müdir təyin olunur.

3) Lənkəran posta-teleqrafxanasının sabiq müdir müavini Cəmşid İmamquliyev həmin idarəyə müvəqqətən müdirliyə təyin olunur.

4) Astara 4-cü sinif posta-teleqraf-xanasının 3-cü dərəcəli məmuru Pyotr Zinyeviç müvəqqətən həmin idarəyə müdirliyə təyin olunur.

Həmin 4 nəfər əşxas [şəxslər] eylül [sentyabr] ayının 2-ci günündən təyin olunurlar.

*Əmrnamə nömrə 101*

12 təşrini-əvvəl 1919 sənə

Azərbaycan Posta-Teleqraf nahiyəsi Baş müdirinin eylül ayının 2-dən 1919 sənədən 16628 nömrəli təqdiminə müvafiq, Bibiheybət 4-cü sinif posta-teleqrafxana müdiri Aleksandr Şeludyakov həmin təşrini-əvvəl ayından etibarən qulluğundan xaric olunur.

*Posta-Teleqraf naziri: Camo Hacınski*

*Dəftərxana baş müdiri: Blajevski*

**Məşixətdən**

*Əmrnamə 34*

1 təşrini-əvvəl 1919 tarixindən etibarən Salyan şəhəri əhlindən Hilal Hüseynzadə İdareyi-Məşixətdə [Şeyxülislamlıq İdarəsində] mübəyyizliyə [yazıların üzünü köçürən katib işinə] qəbul edilmişdir.

*Məşixət sədrləri:*
*[Axund Ağa] Ağaəlizadə və*
*Mustafa Əfəndizadə*

## ERMƏNİSTAN VƏ AZƏRBAYCAN MÜNASİBATI

Qarabağ erməni camaatının Azərbaycan torpağında yaşarkən, təbii Azərbaycan hökumətinə və qanunlarına tabe olmaq lazımdır deyə, məqul və müvafiqi-məntiq [ağlabatan və məntiqə uyğun] qərarından sonra erməni üsyançıları, daşnak agentləri Zəngəzur tərəfə qaçıb, orada fəsadlar törətmək və şeytənətlər icra etmək üçün müsaid bir zəmin buldular.

Şübhəsiz, Ararat barmağı ilə idarə olunan və daşnak rəhbərliyi ilə iş görən bu





müfsid güruhun [fitnəkar qrupun] təqib etdiyi məqsəd ortaya "Zəngəzur məsələsi" çıxarmaq idi.

"Zəngəzur məsələsi" zatən ermənilər tərəfindən meydana çıxarılmış olan "Qarabağ məsələsi"nin mabədidir [ardıdır]. Ermənistanın haqsız və yersiz iddiası ilə törənmiş olan bu məsələ hökumətimizin müdəbbiranə [ağıllı, uzaqgörən] siyasəti və Qarabağ erməni camaatının aqilanə rəftarı sayəsində müvafiqəti-mütəqabilə [qarşılıqlı uzlaşma] yolu ilə həll edildikdən sonra əlləri boşa çıxan daşnaklar dərhal bir "Zəngəzur məsələsi" çıxartmağa çalışdılar.

Zəngəzur Qarabağın bir hissəsi və Qarabağı təşkil edən dörd uyezdən biridir. Zəngəzursuz Qarabağ, Qarabağ ola bilməz. Yəni Qarabağın tamamiyyəti-mülkiyyəsi [ərazi bütövlüyü] ilə bərabər, vəhdəti-iqtisadiyyəsi [iqtisadi bütövlüyü] dəxi xələldar olub [pozulub], həm Cümhuriyyətimizi və həm də bilafərqi-millət [millət fərqi olmadan] bütün Qarabağ əhalisini böyük müşkülatlar qarşısında qoya bilər. Zəngəzurun vəziyyəti-sövqülceyşiyyəsi [strateji vəziyyəti] və köçərilərimiz üçün yaylaq olması bunu isbata kafidir. Bunu hər kəs bilir və yüz il bundan əqdəm [qabaq] Pənah xan dəxi bilirmiş ki, Qarabağ xanlığını təşkil edərkən Zəngəzuru dəxi o xanlığın mühüm bir hissəsi həsəbi [səbəbi] ilə yədi-idarəsinə [əlinə, hakimiyyəti altına] almışdı.

Buna görə də "Zəngəzur məsələsi", yəni təkrar "Qarabağ məsələsi". Bu üzdən bu məsələ Ermənistanın haqsız iddiasına görə ixtilaflı hüdud məsələsi deyil, bəlkə Azərbaycanın cüzi-layənfəki [ayrılmaz hissəsi] olan Qarabağa göz qıcıtmaq və dəstdirazlıq [əliuzunluq] etmək həvəsidir.

Ermənistanın "Zəngəzur bizimdir" deyə haqsız iddialarda bulunması aşkardır ki, "ixtilaflı hüdud məsələlərini sülh və sazişlə həll edəlim" deyil, Azərbaycanın tamamiyyəti-mülkiyyəsinə qarşı sui-qəsd hiyləsidir.

Tiflisdə rusca nəşr edilən erməni "Slovo" qəzetəsi Azərbaycan ilə Ermənistan arasında Zəngəzur haqqında təati edilən [qarşılıqlı göndərilən] notaları "bitərəfanə" bir surətdə mütaliədən [qiymətləndirdikdən] sonra, bu işdə kimin haqlı və kimin haqsız olduğunu təyin etməyə çalışır və "çalışması" nəticəsində haqqın, əlbəttə, Ermənistan tərəfində olduğuna hökm edir.

Qəzetə Zəngəzurun Ermənistana təəllüq etdiyini [məxsus olduğunu] söyləyir deyir ki:

"Əgər işə etnoqrafi nöqteyi-nəzərincə baxılarsa, bir mahal ki, əhalinin 80 faizini təşkil edənlər ermənilər ola, o mahal Azərbaycana deyil, mütləqa Ermənistana təəllüq edə bilər."

Sofizm məntiqi üzərində qurulmuş olan bu mətləbin yanlış olduğu bundan aşkardır ki, ermənisi çox olan bir yeri Ermənistana təəllüq etdirmək doğru olsa, o surətdə Azərbaycanın hər bir yeri ki, orada ermənisi çoxdur, Ermənistana məxsusdur deyə hökm verməlidir. O hesabdan, deməli, Bakının yanındakı "Ermənikənd" dəxi Ermənistanınkı imiş.

Əlavə, böyük haqsızlıq deyilmi ki, bizə gələndə etnoqrafi əsaslardan bəhs edilir, halbuki erməni hökuməti, müsəlmanı çox olan Naxçıvan mahalına soxularkən "Slovo" və əmsalı bu əsaslardan söhbət salmayırdılar.

Və bir də, Zəngəzur əhalisinin 80 faizi ermənidir deyə qərar verməк dəxi yanlışdır. Çünki bu gün dürüst və doğru bir statistik üsulu tətbiq edilərsə, Zəngəzur ermənilərinin 50 faizdən fəzlə olmadığı meydana çıxar.

Bunlardan başqa, biz Zəngəzura Qarabağın bir hissəsi nəzəri ilə baxırız. Ümum Qarabağda isə erməni əhalisi əqəliyyət [azlıq] təşkil edirlər. Əgər bu yerin bir məntəqəsində vaqiən [doğrudan da] bir erməni əksəriyyəti varsa da o məntəqəni qoparıb da Ermənistana vermək hansı ağla və hansı məntiqə müvafiqdir? Böylə bir tələbdə bulunanlara acınmamaq qabildirmi?

Böylə bir xilafi-məntiq bəhsdən sonra "Slovo" qəzetəsi digər bir bəhsə keçir ki, o da başdan-ayağa yalandır. Qəzetə deyir ki, Qarabağ və Zəngəzur erməniləri hələ Almaniyanın müzəffəriyyətlərinə təsadüf edən vaxtlarda dəxi Nuri paşanın müvəffəqiyyətlərinə rəğmən türklərə tabe olmaq istəmədi.

Qarabağ ermənilərinin türk əsgərlərini duz və çörəklə qarşıladıqlarını yalnız həqiqəti gizləmək istəyən "Slovo"lar inkar edə bilər.

Qarabağ ermənilərinin Azərbaycan Türk hökumətinə tabe olmaq istəmədiyini andırmaq istəyən bu sözlərin böyük bir yalan olduğu, ermənilərin yeddinci yığıncağında əksəriyyəti-əzimənin [böyük əksəriyyətin] Azərbaycana tabe olalım deyə qəbul etdikləri qərardan aşkardır. Bu gün əgər Zəngəzuru bulandıran daşnak fitnəçiləri Zəngəzurdan dəf edilərsə, oranın ümum erməni əhalisi Azərbaycan təbəəliyini böyük bir meyil və rəğbətlə qəbul edib, daşnak xüd'ə və dəsisələrindən [hiylə və fitnələrindən] qurtulduqlarına da şükürlər edərlər. Çünki Zəngəzur erməniləri bir kərə Azərbaycandan ayrılsalar, siyasidən əlavə iqtisadi fəlakətlərə məruz qalıb acından ölərlər.

Bədəhu [sonra] "Slovo" qəzetəsi bizim və Ermənistanın notalarını lisan və tərziifadə nöqteyi-nəzərindən "tədqiq" edib Ermənistan notasını sülhamiz [sülhpərvər] bir lisan, hüzur və etidala [təmkinə, soyuqqanlılığa] riayət edən bir ifadə ilə yazılmış görür və bizim notamızın şiddətli lisanından, sülh və sazişə meyil göstərməyən üslubi-ifadəsindən şikayət edir və bundan da bir nəticə çıxarır ki, Ermənistanın hüzur və etidal ilə danışmağı haqqa və mənəvi bu qüvvətə güvəndiyindəndir. Halbuki bizim özümüzü zəbt edəmmədiyimiz, haqsız olduğumuzu hiss etməyimizdənmiş. Deməli, "sən ki, hiddət edirsən haqsızsan" demək istəyir.

Erməni notasının hüzur və etidala riayətlə yazıldığını biz də inkar etməyirik. Lakin bu "pişiyim-pişiyim" ilə bizim torpağımızın ən mühüm bir qitəsini [hissəsini] əlimizdən almaq istəyənlərə acıq tutmamaq və hiddət etməmək qabildirmi? Əgər Azərbaycan Ermənistanın torpağından bir parçasını ən mülayim, ən şirin, hətta "mən ölüm və qurban olum" təbirləri istemalina [işlətməyə] varıncaya qədər yumşaq bir dil ilə istəsə və bunda da israr etsə, Ermənistan böylə bir haqsız tələbdən hiddət etməzmi?

Bundan başqa, bir var ki, dildir, bir də var ki, əməl. Zəngəzur haqqında mülayim dil ilə bizə nota verən Ermənistan, Zəngəzur müsəlmanlarının başına nasıl dürüşt [kobud], zalimanə və birəhmanə oyunlar gətirir.





"Slovo" və əmsalının erməni hökumətini müdafiəsi və bu hökumətin sülh və saziş niyyətlərindən bəhsi heç bir kəsi inandıra bilməz. Qafqaz cümhuriyyətləri arasında "ixtilaflı məsələlər"[də] birinci qılınc çəkən, birinci olaraq qardaş qanı tökən erməni cümhuriyyəti oldu ki, sülh və saziş təriqindən [yolundan] imtina edib, gürcü üzərinə hücum etdi. Özgənin malına və torpağına təmə [tamah] edən yenə birinci Ermənistan oldu ki, Naxçıvan üzərinə hücum edib özgənin yerinə sahibləndi və bugün genə eyni Ermənistandır ki, məqsədi Azərbaycan torpağına dəstdirazlıq etməkdir.

Azərbaycan öz torpağını qorumaq üçün qılınc çəkməyə məcbur olacaqsa və arada qan töküləcəksə, hamısının məsuliyyəti Ermənistan üzərinə aid olacaqdır. Bunu deyil bir Azərbaycan, bəlkə hər kəs və hətta Qafqazla əlaqə peyda etmiş Avropa hökumətlərinin nümayəndələri də iqrar [təsdiq] edirlər.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

***13 təşrini-əvvəl iclası***

Sədr: Həsən bəy Ağayev.

Katib: Mehdi bəy Hacınski.

İclas saat birin yarısında açılır.

Sədr iclası açaraq məsaili-yövmiyyə [gündəlikdəki məsələlər] elan edilir və məbusların iclasa öz vaxtında gəlməyib, hər dəfə bir saatdan ziyadə iclasın gec açıldığını qeydlə, vaxtında gəlmələrini Divani-rəyasət namından [adından] rica edir və deyir ki, bundan böylə Nizamnamə mövcibincə [Nizamnaməyə əsasən] yarım saatdan artıq gözləməyərək kvorum olmasa iclası qapayacaqdır.

Sonra məsaili-yövmiyyəyə keçilərək:

1) Üsyançılar və dövlət əsasları əleyhinə cinayət işləyənlərin məsuliyyəti;

2) Hüquq mühakiməsi nizamnaməsinin 1462-ci fəslinin, məhakimeyi-sülhiyyə təhtindəki iqameyi-davaları [sülh məhkəmələrində iddia qaldırmaq] fiyatının nəhayət dərəcə artırılması üçün təbdili [dəyişdirilməsi];

3) Məhkəmə işlərinin övraqi-dəftərxana [dəftərxana kağızları] və icbariyyə vərəqəsi vergisi ilə qiymətə aid olmayan iqameyi-dava [iddia qaldırmaq] xərclərinin artırılması haqqındakı layiheyi-qanuniyyə;

3-cü qiraətdə qəbul olunaraq, sabiq Zaqafqaziya Komissariatı və Bakı Xalq Komissarları Şurası tərəfindən öhdələrində olan vergilərini vaxtında verməyənlərdən cəza üsulu ilə əxz ediləcək [alınacaq] nəqdiyyələrə dair qərarların ləğvi haqqındakı layiheyi-qanuniyyəyə keçilir və birinci və ikinci qiraətdə qəbul olunur.

**10 milyon borc**

Bədəhu [sonra] Bakı Bələdiyyə İdarəsinə 10 milyon manat borc verilməsi haqqındakı layiheyi-qanuniyyənin müzakirəsinə keçilir. Bu layihə uzun müzakirə və mübahisəyə bais olur.

**Rzayev Abuzər bəy** - Şəhərin builki halını keçənilki ilə müqayisə edərək, binnisbə [nisbətən] yaxşılaşdığını, küçələrin təmizlənməsi, işıq, konka, məktəb və xəstəxanaların şimdi necə olduğunu və bunun

üçün şəhərə külli miqdarda pul lazım ikən mədaxilin azlığını qeydlə deyir ki:

Qabaqda Parlaman, Bələdiyyə İdarəsinə 5 milyon manat borc vermişdi. Bundan əlavə, hökumət şəhərə 50 milyon manat daxili istiqraz əqdinə [borc müqaviləsi bağlamağa] imtiyaz vermişdir. Fəqət həman borc əqdi gec olar. O vaxtadək şəhər xidmətçilərinə maaş vermək lazım dır. Pul da yoxdur. Binaənileyh [ona görə], Bələdiyyə İdarəsi hökumətə müraciətlə 5 faizlə 25 milyon manat borc istəmişdir. Lakin hökumət bu məbləği çox hesab edərək ancaq 10 milyon manat buraxmağa razı olmuşdur. O cümlədən, 5 milyonu qabaqda verilmişdir. Şimdi də 5 milyonunu buraxmaq haqqında Parlamana şu layiheyi-qanuniyyəni təqdim etmişdir. Fəqət bu paranı Bələdiyyə İda-rəsi necə qaytaracaqdır?

Qanuna görə, Bakı Şəhər Dumasına verilən borc, əqd ediləcək olan 50 milyonluq daxili istiqrazdan verilməlidir. Əgər bundan olmasa, şəhər nəfinə [xeyrinə] alınmaqda olan pud hesabı vergidən əda edilməlidir [qaytarılmalıdır]. Əgər şayəd bu, ya o səbəbdən bununla da ödənməzsə, o halda məzkur [deyilən] 10 milyon manat Bələdiyyə Məclisinin 1922 və 1923-cü illər məxaric smetasına daxil edilməlidir. Bundan əlavə, Şəhər Duması bu pula ildə yarım milyon manat faiz verəcəkdir. Həman yarım milyon isə gələn ildən etibarən şəhər smetasına daxil edilsin gərək.

Maliyyə-Büdcə komissiyası bu layihəni qəbulla, təsdiqini Parlamana təklif edir.

**Ağamalıoğlu Səməd ağa** (Hümmət) - Beşinci dəfədir ki, böylə layiheyi-qanuniyyə gəldiyini və şəhərin pulu olmamasının səbəbi olmaq üzrə qlasnıların həp burjuaziya tərəfdarı olduqlarından, şəhər xərcini varlılardan almaq lazım ikən, əsla bu uğurda tədbir görmədiklərini təzkarla [deməklə], təklif edir ki, istənilən pul buraxılmasın. Tainki Dum işlərini apara bilməyərək dağılmağa məcbur olsun və yeni üsul ilə bələdiyyə idarəsi seçilsin.

**[Ağa] Aşurov** - Bu pul verilməzsə minlərcə əmələ və xidmətçilərin ac qalacağını qeydlə, qanunu müdafiə edir və deyir ki:

Bələdiyyə İdarəsinin xərcini azaltmaq lazımdır. Zira Şəhər Duması bir çox şeylərə pul sərf edir ki, o, hökumətin borcudur. Məsələn, polis saxlamaq Bələdiyyə İdarəsinin borcu deyildir. Doğrudur, Azərbaycan hökuməti sabiq Rusiya kimi polis xərcini Dumun boynuna salmayıb, özü çəkir. Amma yenə şəhər çox pul sərf edir. Saniyən [ikincisi], maarif məsələsi tamamilə hökumətin öhdəsində olmalıdır. Halbuki Bakı Bələdiyyə İdarəsi maarif işlərinə ildə 18 milyondan ziyadə pul sərf edir. Salisən [üçüncüsü], məlumdur ki, bu saat xəstəxanalara şəhərin ildə 25 milyondan artıq pulu çıxır. Bu da hökumətin borcudur. Bu surətlə, Bələdiyyə İdarəsinin kəndi məxaricini ödəyə bilməməsinin səbəbi qismən də hökumət borcu olan bir çox şeylərə pul sərf etməsidir. Binaənileyh mən təklif edirəm əvvəla, bu məbləğ Şəhər İdarəsinə 5 faizlə deyil, faizsiz buraxılsın. Saniyən, şəhər heç vaxt bu məbləği 2 ildə qaytara bilməz. Həqiqətə göz yummamalıdır. Görürsünüz ki, əhval ildən-ilə betər olur. Bir də məlumunuzdur ki, həmişə şəhərlərə borcu 10, 20 ilə verirlərdi. Şimdi təklif edirəm pul 2 ilə deyil, 10 ilə verilsin və əlavə, Daxiliyyə nazirinə tapşırılsın ki, Bələdiyyə İdarəsinə xəbər versin, kəndisi bir komissiya təyin etsin, şəhərin öhdəsində olan bəzi vəzifəsindən xaric şeyləri hökumət öz öhdəsinə alsın.

**Abdulla bəy Əfəndizadə** (Əhrar) - Ümumiyyətlə, Bələdiyyə İdarəsinə istənilən borcun verilməsi tərəfdarı olduğunu bəyan edir. Fəqət Aşurovun sözlərinə etirazla polis, maarif, xəstəxana və sairə hökumətə veriləcək olarsa, Bələdiyyə İdarəsi boynunda nə kimi vəzifə qalacağını soruşur. Digər tərəfdən, Bakı ən zəngin bir şəhər ikən Azərbaycanın ½ olmasa da, 1/3 ya ¼ xərci Bakı üzərinə düşdüyünü və bunun müqabilində mədaxil olmadığını qeydlə, "Bəs Bakının da mədaxili az olsa, haranın mədaxili olar bilər?" deyə sual edərək, bununla şəhər xozyaystvo [təsərrüfat] qisminin işləmədiyi[nin] isbat olunduğunu göstərir, təklif edir ki:

Pul verilsin, fəqət şəhərin xozyaystvo işlərinə diqqət verilsin. Yeni seçki icrası iləmi, Bələdiyyə İdarəsini bəzi üzvlərdən təmizləməkləmi, nə ilə olur-olsun, xülasə, buna bir çarə edilsin.

**Əbilov İbrahim** (Hümmət) - 2 aydan bəri qanun qəbul edilmiş olduğu halda, dumaların təyin olunmuş üzvlərdən təmizlənmədiyini və su kəməri, tramvay yolu və sairə inşası kimi böyük xərclər olmadığı halda, şəhərin daima borca möhtac qaldığını qeydlə, qlasnıların mədaxil mənbəyi tapmağı bacarmadıqlarını göstərir və nə qədər ki Duma təzələnməmişdir, pul verilməsi əleyhində danışır, deyir ki: "Biz nə qədər pul versək, o qədər artıq istəyəcəkdir."

Sonra Aşurova etirazla, məktəb, xəstəxana, polis və qeyrə saxlamaq şəhərin vəzifəsi deyilsə, nə üçün öhdəsinə aldığını soru[şu]r və böylə isə "Şəhərin borcu yalnız süpürgəçilikmidir?" sualını verərək deyir ki:

Əgər vəzifəsi bu olmuş olsa da, barı bunu da hüsn-ifa etməyir. Binaənileyh, mən təklif edirəm ki, bu Parlamanda qəbul edilmiş olan qanun ilə yeni demokratik Duma seçilənədək Bələdiyyə İdarəsinə pul buraxılmasın.

**Əhmədov Əsədulla** (bitərəf) - 2 il əvvəl şəhər büdcəsinin 2 ½, keçən il 19 milyon olduğunu qeydlə, xərcin birdən-birə bunca artdığının səbəbi şimdiki Duma deyil, həman "demokrat" Duması olduğunu qeydlə, mədaxil məsələsinə keçir. Deyir ki:

Şəhərin ümdə gəliri dəhyekdən ibarət olub, o da qabaqda 1 faiz idi, indi 2 olmuşdur. Əgər bütün dəhyek yığılsa, mədaxil 5 milyon olar, nəinki 50 milyon. Bütün şəhərin evləri 40 milyon mədaxil verir. Bunun hamısını şəhər kassasına versələr, yenə məxarici ödəməz. Bakı bələdiyyə işlərinin bunca fəlakətə gəlməsinin səbəbi kimlərdir? Senzovik Duması, 7 aylıq Azərbaycanmı? Yoxsa bu fəlakətlərin həpsi həman demokrat denilən Dumanınmı irsidir? Bir də, Duma nə eyləsin? Pud hesabı vergi qanunu 8 aydır təsdiq edilməmişdir. 50 milyon istiqraz layiheyi-qanuniyyəsi hələ 6 aydır gəlib çıxmayır. Nəhayət, bunu da bilməlidir ki, bir aydır Təftiş və Təhqiq Komissiyası təyin edilmişdir.

Bundan sonra, şəhərin maarif, xəstəxana, konka və sairə məsələləri haqqında rəqəmlərlə xərcinin çoxluğunu və qulluqçuların sentyabr maaşlarının verilməmiş qaldığını bəyanla təklif edir, Dumaya borc pul buraxılsın.

**Məhəmmədbəyov Heybətqulu** (bitərəf) - Əfəndizadə və Əbilovun nitqlərini tənqid edərək, axırda deyir ki, Şəhər İdarəsi 3 milyon yarım maaş verir. Şimdi Bələdiyyə Xidmətçiləri İttifaqı hələ yenidən maaşın artırılması haqqında tələbat vermişdir. Bu da qəbul ediləcək olarsa, 4 milyon yarım olacaqdır. Mən təklif edirəm Dumaya istənilən pul verilsin, həm də 10 il müddətinə faizsiz olaraq buraxılsın.

**Qarayev Əliheydər** (sol “Hümmət”) - Təklif edir ki, bu layiheyi-qanuniyyə rədd edilsin və hökumətə tapşırılsın, tez bir zamanda bir layihə tərtib versin ki, möhtəkirlər ilə mülkədarların cibindən pul çıxsın.

**Hacınski Mehdi bəy** (Müsavat) - Nizamsızlıq, zibil, bahalıq və ümum fəlakətlərin həp Qarayevin tərif və tələb etdiyi Moskva füqərayi-kasibəsi [proletariatı] irsi olduğunu bəyan edir. *(alqış, bravo)* Deyir ki:

Şimdi iş başına əsl Azərbaycan demokratiyası keçər, onda görüz işlər nə qədər yaxşı gedər. Hələlik mən bu məbləğin buraxılması tərəfdarıyam.

**Abuzər bəy [Rzayev]** (məruzəçi) - Son sözündə qabaqkı natiqlərə müxtəsərən cavab verərək qanunu müdafiə edir, fəqət pulun faizsiz və 10 il müddətinə verilməsinə razı olmayır.

Rəyə vəz edildikdə [səsə qoyulduqda], əksəriyyəti-ara [səs çoxluğu] ilə layiheyi-qanuniyyə komissiyanın təklif etdiyi kimi qəbul olunur.

5 dəqiqə tənəffüs elan edilir.

**Tənəffüsdən sonra**

**Sədr** - Komissiyalara müraciətlə məruzəçi təyin edərkən bir vəkil dəxi göstərilməsini, keçən iclasda təklif edilmiş olduğu üzrə Parlaman komisyonlarından çıxmış olan üzvlərin yerinə yeni namizədlər göstərilməsini və bir də Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] komissiyasına 2-3 yaxşı türkcə bilən üzvlər verilməsini rica edir.

**Gəlməyənlərə cərimə**

**Ağa Aşurov** - Növbədənxaric söz alaraq bir çox məbusların tez-tez iclasa gəlmədiklərini və bir çoxlarının gəlib adını yazıb da iclasda iştirak etmədən getdiklərini qeydlə, böylələrinə cəza olmaq üzrə Parlamanın qərarına görə o günün maaşından məhrum edilməli olduğunu göstərir. Deyir ki:

Bu cəza azdır. Mən təklif edirəm böylə məbusların cəzası 3 qat artırılsın. Yəni iclasa gəlməyən günü 200 əvəzinə 600 manat cərimə edilsinlər.

Bu məsələ üzərinə bir qədər mübahisə açılaraq, nəhayət, iclasa gəlməyən üzvlərin 600 manat cərimə edilmələri haqqında Ağa Aşurov tərəfindən edilmiş təklif əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.

**Qulluqların müsavilәşdirilməsi**

Nəhayət, növbətçi general-kvartirmeyster və Ərkani-Hərbi-Ümumi [Baş qərargah] Topoqraf şöbəsi rəisi qulluğunun firqə [diviziya] komandanı qulluğu ilə müsaviləşdirilməsi haqqındakı layiheyi-qanuniyyənin müzakirəsinə keçilir. İstecal [təcili qərar] elan edilir. Layiheyi-qanuniyyə 1-ci, 2-ci və 3-cü qiraətdə bilaetiraz [etirazsız] qəbul olunur.

İclas bununla qurtarır.





**MƏCLİSİ-MÜƏSSİSAN SEÇKİLƏRİ HAQQINDA QANUN**

**Üçüncü bab**

17. Kənd icmalarının seçki komisyonlarını mənsub olduqları qəzanın intixab [seçki] komisyonu tənasübi-qüva [qüvvələr nisbəti] əsası ilə məhəlli [yerli] siyasi firqə nümayəndələrindən və böylələri bulunmadığı təqdirdə öz səvabdidi ilə [düzgün hesab etdiyi şəkildə] təşkil edər. İcma Komisyonu beş əzadan [üzvdən] ibarət olub, öz arasından bir sədr, bir müavini-sədr, bir katib və bir xəzinədar seçər. Namizədlər siyahısı Mərkəzi Komisyona daxil olan gündən etibarən namizəd siyahısı çıxarmış olan firqə və qrupların birər nümayəndəsi əza hüququna malik olmaq üzrə Köy İcması Komisyonuna daxil ola bilər.

18. Köy icma komisyonlarının vəzifəsi:

1) Xırda kənd komisyonlarına seçki icrası üçün lazım olan əşya və sandıqları tədarük etmək;

2) Köy icmasını xırda kənd seçki vahidlərinə təqsim etmək [bölmək];

3) Təqsim layihəsini qəza komisyonuna təqdim etmək;

4) Xırda köy seçki komisyonlarını təşkil etmək;

5) Seçkiçilər siyahısının dürüst tərtibinə və təhriri-nüfus [əhalinin qeydə alınması] işlərinin gedişinə diqqət yetirmək;

6) Təhriri-nüfus icrasının öz vaxtında başlanması və qurtarmasına çalışmaq;

7) Ümum seçkiçilərin siyahıya qeyd olunmalarına diqqət etmək;

8) Seçki vərəqələrini saymaq;

9) Şikayət və protesto qəbul etmək və Qəza Komissiyasına yetirmək;

10) Bütün icma seçkilərinə aid ümum işləri Qəza Komisyonuna təhvil vermək.

19. Xırda Kənd Seçki Komisyonu beş əzadan ibarət olub, sair komisyon üçün qəbul edilmiş əsas üzərinə Qəza Komisyonunun nəzarəti və göstərməsi ilə Köy İcması Komisyonu tərəfindən təşkil edilir. Bu komisyonun çalışacağı dairənin nimqütrü [radiusu] iki-üç çağırımlıq (verst) bir məsafədən artıq olmamalıdır. Mərkəzi Seçki Komisyonuna namizədlər siyahısı daxil olan gündən etibarən siyahı çıxarmış olan firqə və qrupların birər nümayəndəsi əza hüququna malik olmaq üzrə Köy Komissiyasına daxil olur.

20. Xırda köy komisyonlarının vəzifəsi:

1) Seçkiçilərin siyahısını yazanlara hər növ müzahirətdə bulunmaq [kömək göstərmək];

2) Seçki üçün lazım olan əşya və sandığı öz vaxtında kənd icmalarından almaq;

3) Sandıqdan çıxarılan zərfləri (açmadan) saymaq, səs verənlərin miqdarı ilə zərflərin ədədi arasındakı nisbəti təyin etmək və:

4) Seçkiyə aid ümum işləri Kənd İcma Komisyonuna təhvil vermək.

21. Gərək hökumət, məhkəmeyi-zabitə və ictimai müəssisələr tərəfindən tərtib verilən Məclisi-Müəssisan seçki işlərinə dair akt və kağızlar və gərəksə ümum məzkur [deyilən] müəssisə və məmurlar tərəfindən verilən kağızlar hər növ rüsumdan müafdırlar [azaddır].

**Dördüncü bab**

**Seçki siyahıları**

22. Məclisi-Müəssisan intixabatı icrası üçün hər seçki məntəqəsində ayrı-ayrı

olaraq seçkiçilər siyahısı tərtib verilir. Heç kəs bir məntəqədən artıq siyahıda qeyd olunammaz.

23. Seçki siyahılarının tərtibi qəza seçki komisyonlarının öhdələrinə buraxılır.

24. Bütün Cümhuriyyətdə seçki siyahısının tərtibinə şüru etmək [başlamaq] günü Mərkəzi Seçki Komisyonu tərəfindən təyin və bütün camaatın geniş surətdə xəbərdar edilməsini təmin edən ən mötəbər vəsilə [vasitə] ilə ümumun nəzəri-diqqətinə elan olunur.

25. Hər məntəqənin siyahısına, siyahı tərtibinə başlanan gün həman məntəqədə yaşayan ümum seçkilərə iştirak etmək haqqına malik əşxasın [şəxslərin] adı qeyd olunur, vəlovinki [hətta] bu şəxs müvəqqətən öz məntəqəsindən ayrı ola.

26. Bir məntəqəyə siyahı tərtibinə şüru edildikdən sonra gələn zəvatın [şəxslərin] adı o vaxt siyahıya qeyd olunur ki, özü bu xüsusda Məntəqə Seçki Komisyonuna ərzi-hal vermiş ola. Böylə ərzi-hallar siyahı tərtibi davam etdiyi müddətcə və ümumun ənzarına [nəzərinə] təqdim edildikdən beş gün sonrayadək verilə bilər. Bununla bərabər, sabiqdə yaşadığı məntəqə siyahısından adının çıxarılması haqqında da ərzi-hal verməlidir. Bu ərzi-hal dəxi məhəlli-aidinə irsal olunur [aidiyyətli yerinə göndərilir].

27. Siyahıda hər şəxsin familiyası, ləqəbi (təxəllüsü), adı, atasının adı, yaşı, milliyyəti, dini, savadlı ya savadsız olmağı, nərədə oxuduğu, sənəti və nərədə yazılmış olduğu qeyd edilməlidir. Hər məntəqədə siyahı familiyadan başlanaraq əlifba tərtibi ilə yazılmalıdır.

28. Siyahı hazır olduqda bilatəxir [dərhal], hər halda seçkilərə şüru edilmədən əqəllən [ən azı] 50 gün əvvəl təhqiq üçün ən əlverişli bir vasitə ilə ümumun nəzərinə vəz edilir [təqdim edilir].

29. Seçkiçilər siyahısı ümumun nəzərinə vəz olunduqdan sonra 10 gün müddətində siyahının qeyri-mükəmməlliyi, yaxud dürüst olmaması barəsində hökuməti-məhəlliyəyə [yerli hökumətə] protesto və seçkiyə iştirak haqqına malik əşxas [şəxslər] şikayət edə bilərlər. Böylə şikayət və protestolar qəza seçki komisyonlarına verilməlidirlər.

30. Məzkur komisyonlar bu işlərə əməl edə bilərlər:

1) 26-cı maddədə göstərilmiş müddətin qurtarmasına əqəllən beş gün qalmış verilmək şərti ilə bir şakinin [şikayətçinin] siyahıya qeyd edilməmiş qalması haqqındakı şikayətinə;

2) Seçkiçilər siyahısında bir şəxsin haqqında qeyri-müvafiqi-həqiqət məlumat verilməsi barəsində şikayətlərə. Böylə şikayətlərə əməl etdikdə komisyon bu xüsusu şakilərə xəbər verməlidir.

31. Bundan başqa, hər növ şikayət və protestolar üç gün zərfində Mərkəzi (Cümhuriyyət) Komisyonuna göndərilir. Şikayət və protesto ilə bərabər, məzkur komisyonlar öz izahnamələrini də göndərməlidirlər.

32. 26-cı maddədə göstərilmiş olan müddətin qurtarmasından əqəllən beş gün əvvəl əlavə siyahıya ancaq:

1) 26-cı maddədə göstərilib də şikayəti haqlı görülmüş şəxslərin adları qeyd olunur (əgər vaxtında qeyd edilməmişsə);

2) 30-cu maddədə göstərilmiş əşxasın və şikayətlərinə aid komisyon tərəfindən əməl edilmiş zəvatın [şəxslərin] adları qeyd olunur.





33. Əlavə siyahı haqqındakı şikayət və protestolar 29 və 31-ci maddələrdə göstərilmiş təriqlə [yolla] və 29-cu maddədə göstərilmiş möhlət qurtaranadək verilməlidir.

34. Şikayət və protestolara Mərkəzi (Cümhuriyyət) Komisyonu beş günün müddətində açıq iclasda zabitə qanununa (Məcmeyi-qəvanin [Qanunlar toplusu], 1917-ci il, 192-ci maddə) müvafiq zəbtiyyə hakimlərinin işə baxmaları haqqında qonulmuş qayda ilə baxar. Bu işlərə baxıldıqda şikayət ya protesto edən şəxslərlə şikayət edilmiş siyahını tərtib vermiş komisyonun nümayəndəsindən başqa, bu şikayətlə seçki haqqı mübahisəni mövcib olan zəvat [mübahisəyə səbəb olan şəxslər] dəxi iştirak edə bilərlər.

35. Mərkəzi Komisyonun qərardadı qarşısına 10 gün müddətində nahiyə məhkəməsi zabitə şöbəsinə şikayət edilə bilər. Fəqət bu təqdirdə belə şikayət, yaxud protestonun edilməsi seçkilərin icrasını dayandıra bilməz.

36. Nahiyə məhkəməsi bu növ şikayət və protestolara beş gün müddətinə baxmalıdır.

37. Seçkiçilər siyahıları beş gün zərfində Mərkəzi Komisyonun, yaxud nahiyə məhkəməsinin qərarı əsasıyla islah edilməkdən sonra, intixabata başlamadan əqəllən on gün əvvəl yenidən geniş surətdə təhqiqi təmin edən vasitə ilə ümumun nəzərinə vəz olunur.

**Beşinci bab**

**Namizəd siyahıları haqqında**

38. Məclisi-Müəssisan seçkiləri, çıxarılmış olan siyahılardan birisinə səs vermək təriqiylə [yoluyla] icra olunur.

39. Namizəd siyahılarını seçkiçilər qrup-ları seçki günündən əqəllən 30 gün əvvəl Mərkəzi İntixab Komisyonuna verirlər.

40. Namizəd siyahılarından hər birisi əqəllən yüz nəfər seçkiyə iştirak hüququna malik əşxas tərəfindən imza edilməlidir. Siyahılarda hər namizədin ismi, atasının adı və məhəlli-iqaməti göstərilməlidir. Siyahı ilə bərabər, hər namizədin bu siyahı ilə namizədliyi qonulmasına razı olduğu haqqındakı ərzi-halı dəxi təqdim edilməlidir. Siyahıda, onu təqdim edən təşkilatın adı qeyd oluna bilər.

41. Namizəd siyahısı çıxaran qrup, Mərkəzi Komisyonda iştirak etmək və onunla əlaqədə bulunmaq üçün, öz tərəfindən seçmiş olduğu nümayəndəsini də göstərməlidir. Əgər nümayəndə göstərilməmiş olsa, siyahını birinci imza edən şəxs nümayəndə tələqqi edilir. Mərkəzi Komisyonun elannaməsi evinə göndərilmək istəyən zəvat, bunun üçün komisyonun məhəlli-iqaməti olan [yerləşdiyi] şəhərə öz ünvanını xəbər verməlidir. Əks surətdə elannamə komisyon binasında asılmaqla, kəndisinə verilmiş tələqqi [hesab] olunur. Bundan əlavə, nümayəndəsinin qəza və məntəqə komisyonları heyətinə daxil olmalarını istəyən seçkiçilər, kimi hankı komisyona təklif etdiklərini bildirməlidirlər.

42. Hər intixabçı ancaq bir siyahını imza edə bilər. Əgər bir intixabçı iki, ya daha ziyadə siyahını imzalasa, ancaq Mərkəzi Komisyona ən əvvəlcə vüsul olmuş [gedip çatmış] siyahıdakı imzası mötəbər hesab olunar.

43. Bir şəxsin müxtəlif siyahılarda yazılmasına məhəl [yer] verilməz.

44. Namizədlər siyahısını qəbul etdikdə, Mərkəzi Komisyon hankı ay, gün və saatda qəbul etdiyi qeyd olunmaq şərti ilə qəbzül-vüsul [təhvil qəbzi] verməlidir.

45. Təqdim edilən siyahı 40, 42 və 43-cü maddələrdə göstərilən şərtlərə müvafiq olmadığı təqdirdə, Mərkəzi Komisyon bunu üç gün zərfində siyahı çıxaran qrupun nümayəndəsinə xəbər verməlidir. Məzkur nöqsanı islah üçün veriləcək olan ərzi-hal seçki günündən əqəllən [ən az] 24 gün əvvəl verilməlidir.

46. 38, 40 və 41-ci maddələrdə göstərilən şərtlərə müvafiq olan siyahılar Mərkəzi Komisyon tərəfindən daxil olduqları tərtiblə nömrələnir. Daxil olan siyahılar həman nömrələrlə və xəbər verilmiş olduğu təqdirdə siyahı çıxaran təşkilatın adı ilə bərabər, seçki günündən əqəllən 23 gün əvvəl komisyon binasında ümumun nəzərinə vəz olunur və bundan əlavə, bilatəxir [dərhal] qəza komisyonlarına xəbər verilməklə bərabər ümuma elan edilir.

47. Namizədlər siyahısı çıxarmış olan qruplar seçki günündən əqəllən 15 gün əvvəl təqdim etdikləri siyahıların birləşdirilməsi haqqında Mərkəzi Komisyona ərzi-hal verə bilərlər. Böylə ərzi-halları birləşən qrupların həpsinin nümayəndələri imzalamalıdırlar. Siyahıların birləşdirilməsini, bu xüsusda məlumat aldıqdan bir gün[dən] ziyadə gec olmamaq şərtilə Mərkəzi Komisyon ümuma elan edər.

48. Bir siyahı birdən ziyadəsi ilə birləşə bilməz.

*(mabədi var)*

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan radio mövqifi tərəfindən alınmışdır)*

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Arxangel dairəsində Plesetskdən şimala vuruşmalar davam edir.

Murman cəbhəsində - Barens boğazı qərb kənarına çıxarılan qitəatımızın [hərbi birliklərimizin] hücumu müvəffəqiyyətlə davam etmədədir. Tərəfimizdən bir neçə kəndlər işğal edilmişdir. Düşmən bütün cəbhədən ricət edir [geri çəkilir]. Murman dəmiryolu boyu ilə bizim hissələrimiz hücum edərək Ljim mövqifindən [stansiyasından] şimala 10 verst irəli hərəkət etmişlərdir.

Narva cəbhəsində - Krasnı Kuzninin cənub-qərbinin 5 verstliyində vuruşmalar davam edir. Qatçinadan 35 çağırım qərbə Lujsk dairəsində vuruşmalar davam edir.

Pskov dairəsində - Velikaya çayının 10-15 verst qərbində vuruşmalar davam edir.

Kiyev dairəsində bizim hissələrimiz düşmən tərəfindən olunan şiddətli müqavimətə baxmayaraq, Kiyevin 5 verstliyinə yaxınlaşmışlar. Hücumumuz davam edir.

Qluxovo dairəsində bizim qəhrəman qoşunlar hücumlarında davam edərək Mixaylovaya gedən yolu və Voronej-Çerniqov qəsəbəçəsini işğal etmişdir. Düşmən külli tələfat verərək Krolf və Qluxova ricət edir [çəkilir].





Kursk dairəsi - Şiddətli vuruşmadan sonra tərəfimizdən Dmitrovsk şəhəri işğal edilmişdir.

Orlov dairəsi - Orlov şəhəri ətrafında qızğın müharibələr davam edir.

Livnı və Voronej dairəsi - Təbədüllatsızdır [dəyişiklik yoxdur].

Pavlovsk dairəsində - Pavlovsk xətti Kalaç mövqifi şimalında şiddətli vuruşmalar vaqe olur.

Kazan Vişnyov[ka] dairəsi - Hər iki tərəfdən şiddətli və qızğın vuruşmalar olur.

Ural dairəsində - Düşmən hücumu Uraldan 100 verst şərqə Kandelinsk yaxınlığında tərəfimizdən dəf edilmişdir.

**Qanlı müsadimələr və talan**

Nauen - Almaniya mətbuatı Saar mahalından təxliyə edilməkdə olan Fransa əsgərləri ilə əhali arasında qanlı müsadimələr [toqquşmalar] olduğunu təsdiq edir. Qoşunla əhali arasında olan əlaqə mötədildir. Sankt-İnqbert şəhərində böyük iğtişaşlar olmuşdur. Fransız qoşunları ilə əlaqədar olan mağaza sahiblərinin mağazaları əhali tərəfindən qarət edilmişdir. Fransız qoşunları tərəfindən şəhərdə intizam və asayiş bərpa edilmişdir. Saarluidə və Rutveldə həmçinin iğtişaşlar vaqe olmuşdur. İğtişaşı yatırtmaq üçün fransız piyada alayının dəvət edilməsi məcburiyyəti görülmüşdür.

**Böyük yanğın**

Hacı-Tərxan - Vladiqafqazda nəşr olunan "Jizn" qəzetəsinin verdiyi xəbərə nəzərən, Qroznıda böyük yanğın əmələ gəlmişdir. 18 böyük çənlər, 3 lokomotiv və bir neçə vaqon yanıb məhv olmuşdur. Dəmiryol xətti təxrib edilmişdir. Vladiqafqaz şəhəri ilə əlaqə kəsilmişdir.

**Edam**

Saratov - "Volnaya Kuban" qəzetəsinin məlumatına görə, Rostovda kəlisada [kilsədə] nitq söylədiyi üçün çəkməçi Rapolski atılmaqla edam edilmişdir. Məzkur [adı çəkilən şəxs], nitqində bütün əhalini qardaş müharibəsinə xitam verməyə və ümuma qardaşlıq və bərabərlik vəd edən Bolşevik hökuməti ilə sülhə dəvət edirmiş.

**Denikin ilə dağıstanlıların mübarizəsi**

Saratov - Stavropol quberniyasında Könüllü ordu ilə dağıstanlılar arasında qızğın mübarizələr davam edir. Denikin çətələri Osetiyaya daxil olandan sonra osetinlərin bolşevik firqələrindən həyasızca intiqam almaqdadırlar.

Denikinçilər Xristianov stansiyasını əhatə edərək əhalini bir milyon taxıl, min at, 5 min tüfəng və 3 milyon fişəng verməyə məcbur etmişlərdir. Bolşevik firqəsinə mənsub adamlar mühasirə cəbhəsini yarıb Ardon meşələrinə atlarla qaçıb gizlənmişlərdir. Çətə tərəfindən "Kermen" bolşevik firqəsinin sədri Beqlov tutulub süngü ilə öldürülmüşdür.

* * *

Şayiata görə, Corc Klark Ali Şuraya; romaniyalıların, Sülh Konfransının romaniyalıların Venqriyada [Macarıstanda] qəsb etdikləri malların onlara verilməsini etiraf [qəbul] etdiyi təqdirdə romaniyalıların Bükreşdən [Buxarestdən] çıxacaqlarını bildirmişdir.

**Terski oblast övzası**

Terski oblastda ərzaq işləri fəna bir haldadır. Mübadileyi-əmval [mal mübadiləsi] təşkilatı yoxdur. Taxılın fiyatı yüksəkdir. Dabravolların vəhşiliyi Şura hökuməti tərəfdarlarını çoxaltmışdır. Stansiyalarda bolşeviklər lehinə təbliğatlar yapılır.

**Qırmızıların qəniməti**

Jitskvitskə böyük dəstə əsir gətirilmişdir. Əsirlər çox pərişan haldadırlar.

**Bizi bəkləyirlər**

Mixaylovsk sipərlərinə [səngərlərinə] hücum etdiyimiz zaman bir məktub bulunmuş. Məktubda denilir ki: "Əziz yoldaşlarımız kommunistlər və Qırmızı əsgərlər! Sizi Şimali Qafqaziya bəkləyir. Novorossiysk Yaşıl ordu tərəfindən zəbt edilmişdir."

**Amerika tətilinin təfsilatı**

Amerikada tətil işləri fövqəladə kəskin bir mahiyyət alır. Tətilin əvvəlinci günlərində Karolinadan emalatxanalar əmələləri mitinqlər yapmışlardır. Polis əfradı [nəfərləri] əmələləri pərakəndə etmişdir. Fabrikaçılar polisdən əlavə olaraq tətilə qarşı tədabir ittixaz[ını tələb] edirlər. Bir çox yerlərdə əmələlərlə polis əfradının müsadiməsi [toqquşması] olmuşdur.

*(Lion radiosu məlumatı)*

**Fon der Qolts əsgərləri Riqada**

Qəzetələr xəbər verirlər ki, general [Rüdiger] fon der Qolts əsgərləri Riqaya daxil olmuşlardır.

**Bolqariyaya möhlət**

Müttəfiqlər tərəfindən Bolqariyaya, verilən şəraitə cavab verilməsi üçün 10 gün möhlət verilmişdir.

*(Müttəfiqlər heyətinin radiosu)*

**Şərq məsələsi**

Franşe D'Esperi "Tayms" qəzetəsində yazdığı bir məqalədə Balkan qalibiyyətinin səneyi-dövriyyəsini [ildönümünü] zikr edərək deyir ki, Balkanda olan qələbənin hərbi nəticələrindən başqa, siyasi dəxi nəticələri olmuşdur. Çünki bu qələbə Balkanı almanlardan istixlas [xilas etdi] və Almaniyanı Şərqdən ayırdı. Bununla bərabər, qəzetənin rəyinə görə, nə Balkan və nə Yaxın Şərqdə bir çox məsələlər həll edilməmişdir. Böylə ki, hərçənd müzakirat davam edir, Suriya və qeyri məsələlər həll edilməmiş qalmışdır. "Tayms" ərəblərin istiqlaliyyət hərəkatları ki həbslərlə işaə edilir [xəbər verilir], – Beynənnəhreyndə nə etdiyini soru[şu]r.

İngiltərə ilə İran arasında olan müqaviləni vətənpərəst əhali təsvib etmədiyindən [bəyənmədiyindən] dolayı, Tehran hökuməti həbslər etdiyinə dair nə edilmişdir? İstanbul və həvalisində [ətrafında] nələr vaqe olur? Türkiyə vətənpərəstlərinə nə mandat və nə təhti-himayəyə [himayə altına] alınmadan öz istiqlaliyyətlərinin saxlanılması və onlara müavinətlər edilməsi xüsusunda olan ricalarına nə cavab verilmişdir?

"Tayms" məqaləsinə böylə xitam verir:

"Yox, Şərq qələbəsi ümid edilən nəticələri verməmişdir."





## SÜLH ƏTRAFINDA

**Macarıstanda Romaniya çapqını**

Romaniyalılar Macarıstanı işğal etdiyi zamanlarda, Məclisi-Alinin əmrnamələrinə rəğmən yapdığı çapqınlıqların [soyğunçuluqların] hesabını vermək zamanı indi yetişmişdir. Sülh Konfransı tərəfindən Macarıstana ezam edilmiş heyəti-məxsusə romaniyalıların Bükreşdən apardığı cümlə əşyanın cədvəlini tərtib verəcəkdir. Aparılan əşyanın yekunu məlum olduqda Macarıstan ilə hesablarını bitirərkən, Romaniyaya yetişən hissədən şu məbləğ çıxarılacaqdır.

Budapeştənin təxliyəsi xüsusunda Romaniya mənabeyindən [mənbələrindən] verilən əxbarata [xəbərlərə] rəğmən, Məclisi-Alinin Macarıstan nümayəndəsi xəbər verir ki, heç bir təxliyə hərəkətləri Macarıstanda müşahidə edilməyir.

## QƏZETƏLƏRDƏN

**Kuban və Dabravol ordusu**

Moskva - Denikinçilərlə Kuban kazakları arasında ixtilaf şiddətlənmədədir. Dəfələrcə aralarında top atışması da olmuşdur. Kuban Radası Denikin diktaturasını tanımaq istəməyir.

**Kolçak arxasında**

Omsk quberniyası uyezdlərindən ikisi Kolçakı tanımayır. Onları itaətə gətirmək üçün göndərilən kazaklar münhəzim [məğlub] edilmişlərdir. Orka qəzasında qırmızı başıpozuq dəstələri təşəkkül edərək Kolçak arxasına zərbə endirirlər.

**Kolera**

Qəzetələrin əxbaratına [xəbərlərinə] nəzərən dabravolluqda kolera [vəba] xəstəliyi intişar etmədədir [yayılmadadır]. Yekaterinodarda xəstəliyin ibtidasından [başlanğıcından] 436 adam xəstələnmişdir. Onlardan 243-ü şəfayab olub [sağalıb], 181-i vəfat etmişdir.

**Kiyev bombardman edilir**

Bolşevik teleqrafnamələrinə baxılarsa, Qırmızı ordu Kiyevin 10 fərsəx məsafəsinə qədər yaxınlaşıb, orada etdiyi müharibəsində bir qəryə [kənd] işğal edərək, dabravollardan 3 top və başqa qənimətlər də zəbt etmişdir və bolşevik donanması Desna nəhri məcrasına çıxaraq Kiyev mövqifini bombardman etmişdir.

**Çerniqovun təxliyəsi**

Yenə bolşevik xəbərlərinə görə, dabravolların təzyiqatı altında Qırmızı ordu Çerniqov şəhərini təxliyə edərək 10 fərsəx geriyə çəkilmişlərdir.

**Ermənilər şikayət edirlər**

Erməni başçılarından biri "M. N. N." qəzetəsində şikayət edərək deyir ki, Asiyayi-Süğrada [Kiçik Asiyada; Anadoluda] olan türk hərəkatı hal-hazırda Ermənistanı təhdid edir, amma Ermənistan müdafiəçisi olan qalib dövlətlər isə kəndi işləri ilə məşğuldurlar.

**Denikin arxasında**

Tsaritsın uyezdi rəncbərləri Denikinə qarşı üsyan etmişlərdir. Xopyorsk nahiyəsində dəxi at yığmaq üstündə kazaklarla könüllülər üsyan qaldırmışlardır.

**Bir Rusiya hökuməti daha**

Mitavada rus və alman beloqvardiyasından mütəşəkkil yeni bir Rusiya hökuməti təəssüs etmişdir [qurulmuşdur].

**Petlyura və Denikin**

Qəzetələrin verdiyi məlumata görə, Petlyura Denikinə qarşı çıxmışdır. Səbəbi isə Denikinin Ukrayna istiqlalını tanımaq istəmədiyidir. Ukrayna hökuməti Romaniya və Lehistan [Polşa] ilə müahidə əqd etmiş [saziş imzalamış] və Xotinsk, Yeletsk, Soroksk qəzalarından başqa bütün Bessarabiya Romaniyaya verilmişdir.

## DAĞISTANDA

Ən mövsuq mənabedən [etibarlı mənbələrdən] aldığımız məlumata məbni [əsasən], Teymurxanşura şəhəri üsyançılar tərəfindən işğal edilmişdir.

Dərbənd cəbhəsində üsyançılar şəhərdən çıxıb 5 verstliyində istehkam yapmışlardır.

Cəbhə hal-hazırda Petrovskun 12 verstliyində vaqe Kumtorkalı aulundadır.

Şayiata görə, Teymurxanşura müharibəsində dabravollar tərəfindən müharibə edən sabiq bolşeviklərin iki taboru dağıstanlılar tərəfinə keçmişdir.

## TÜRKİYƏDƏ

**Trakiya haqqında**

“Ələmdar” qəzetəsinin verdiyi məlumata nəzərən, Trakiya məsələsi Türkiyənin nəfinə [xeyrinə] həll ediləcəkdir. Bu günlərdə Misirdən İstanbula varid olanların [gələnlərin] dediyinə görə, Trakiyanın Türkiyəyə verilmək ehtimalını bilərək Misirdəki Yunan dairələri orada sükunət edən yunanlara trakiyalı olduqlarını təsdiq edən bir çox şəhadətnamələr verirlər.

“Çikaqo tribune” qəzetəsinin yazdığına görə, Amerika rəisi-cümhuru Amerikanın Parisdəki sülh heyəti-mürəxxəsəsinə [nümayəndə heyətinə] bir teleqraf çəkərək, Trakiya məsələsində əski nöqteyi-nəzərində israr eylədiyini və Şərqi-qərbi Trakiyanın beynəlmiləl kontrola tabe müstəqil bir dövlət halına buraxılması lazım gələcəyini bildirmişdir.

**Trakiya müsəlmanlarının təşəbbüsatı**

“İstiqlal” qəzetəsinə Parisdən yazırlar:

Trakiya müsəlmanları Məclisi-Ali əzasına [üzvlərinə] bir müxtirə [xəbərdarlıq məktubu] göndərərək, Trakiyada əksəriyyəti-əhalinin müsəlman olduğunu dərxatir etdirmişlərdir [yada salmışlar]. Bunlar eyni zamanda əhalinin Yunanıstan və ya Bolqariyaya iltihaq etmək [birləşmək] arzusunda bulunduğuna dair olan teleqrafnamələri təkzib etməkdə və əksəriyyətin Strumaya qədər bitərəf bir hökumət təsisi əməlində [arzusunda] olduğunu təkid eyləməkdədirlər.

**Türkiyənin Vilsona cavabı**

“Pəyam” qəzetəsi yazır:

Amerika Cəmahiri-Müttəhidəsi [Birləşmiş Ştatları] rəisi müsyö Vilsonun İstanbuldakı Flemenk Səfarəti [Hollandiya Səfirliyi] vasitəsilə, Anadoluda ermənilərə yenidən təərrüz [hücum] olunduğu təqdirdə Vilson prinsiplərinin Türkiyəyə aid olan 12-ci maddəsinin tətbiqindən fəraqat ediləcəyini müttəzəmmin [vaz keçəcəyini ehtiva edən] bir notanı Babi-aliyə göndərmiş olduğu əvvəlcə yazılmışdı.

**Təkzib**

Bəzi qəzetələr tərəfindən Osmanlı dövlətinin maliyyə təzyiqi səbəbi ilə xəzinədə saxlanmaqda olan bir çox pürqiymət [çox qiymətli] əşya və asari-ətiqənin [əntiq əsərlərin] bilmüzayidə [hərrac yoluyla] satılacağı haqqında verilən xəbərlər hökumət dairələri tərəfindən rəsmi surətdə olaraq təkzib edilir. Hökumətin maliyyə cəhəti arzu edilən bir halda olduğundan, bu kimi tədbirlərə ehtiyac hiss edilməyir.

* * *

Babi-ali əvvəlki gün müsyö Vilsonun notasına cavab vermişdir. Cavabi notada Hökuməti-səniyyənin məsaisi [Uca hökumətin səyləri] ötədən bəri məmləkətdə yaşayan bilümum ənasirin [bütün ünsürlərin] təmini-səadət və rəfahiyyətinə mətuf [səadət və rifahlarının təmin edilməsi istiqamətində] olduğu və ənasiri-qeyri-müslimənin [müslüman olmayan ünsürlərin] həyatlarını təhlükə altında göstərmək üçün yapılan bütün təşəbbüsatın siyasi intriqalardan ibarət olduğunu bəyan edir. Əzcümlə [o cümlədən], notada bəyan edilir ki:

*“Şayani-vüsuq və etimad zəvat [etibara və etimada layiq şəxslər] tərəfindən məhəllində [yerində] təhqiqat icrası ilə həqiqətin meydana çıxarıldığını görərsə, hökuməti-Osmaniyyə məsrur [şad] və bəxtiyar olar. Türkiyədəki ermənilərə təcavüzü kimsə xatirdən keçirməz.”*

İşbu nota Hollanda Səfarəti mərifəti [vasitəsi] ilə icab edən məqamatına tövdi qılınmışdır [lazım gələn yerlərə çatdırılmışdır].

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

- Hərbiyyə nazirinin, mülazimi-sani [leytenant] Xəlilovun işinin qət edilməsi [işinə xitam verilməsi] haqqındakı təqriri [rəsmi məktubu] nəticəsində işinin qət edilməsi qərara alınmışdır.

- Ədliyyə nazirinin Nəzarət cənbində [Nazirlik nəzdində] təşəkkül etmiş komisyon əzasına [üzvlərinə] verilmək üçün 15 min manat təxsisi [ayrılması] haqqındakı təqriri isteması [dinlənməsi] nəticəsində istənilən məbləğin 20 milyonluq fonddan verilməsi qərara alınmışdır.

- Hərbiyyə nazirinin Ağdam nizamsızlıqlarında iştirak edənlərin əleyhinə edilən təqibatın qət’i [cinayət təqibinə xitam verilməsi] haqqındakı təqriri isteması nəticəsində işin qət’i [xitamı] və məsarifatın xəzinə hesabına alınması qərara alınmışdır.

- Maarif nazirinin Azərbaycanda dörd darülmüəllimin güşadı [pedaqoji məktəb açılması] məsarifatı üçün 2.885.160 manat təxsisi haqqındakı təqririn isteması nəticəsində qanun layihəsi təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılmışdır.

- Maarif nazirinin Gəncə, Şəki, Şuşa və Qazaxda zükur [oğlanlar], Bakı, Gəncə və Şəkidə iki sənəlik müəllimin [müəllimlər] kursları və Bakıda bir sənəlik rüşdiyyə məkatibi [məktəbləri] müəllimin hazır-

lıq kursları güşadı haqqındakı təqriri isteması nəticəsində qanun layihəsi təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılması qərara alınmışdır.

- Hərbiyyə nazirinin Bakı həbsxanasında məhbus edilmiş, dövləti mal sərf etməkdə müttəhim edilən Zavertalnının əfvi haqqındakı təşəbbüsatına dair təqriri isteması nəticəsində rədd edilməsi qərara alınmışdır.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Ermənistana aparılacaq, müsəlmanlara müavinət üçün 20 min pud buğdadan alınacaq gömrüyün ləğvi haqqındakı təqriri isteması nəticəsində qəbulu təhti-qərara alınmışdır.

- Xariciyyə nazirinin müavin təyini haqqındakı təqriri isteması nəticəsində Məhəmməd xan [Təkinski] Xariciyyə naziri müavinliyinə təyin edilməsi qərara alınmışdır.

- Posta və Teleqraf nazirinin telefon tarifəsinin təzayüdü [artırılması] haqqındakı təqriri isteması nəticəsində qərara alınmışdır:

1) Bir sənəliyə (iyulun 1-dən 1920-ci sənəsi iyulunadək) müvəqqəti olaraq telefon tarifəsini 100 faiz artırmağa icazə verilir, fəqət Bierinq Cəmiyyəti bu zaman zərfində telefon xəttini nizama salmaqla bərabər, miqdarının 1000 ədəd artırılması və lazımi material alması şərtdir.

2) 1-ci maddədə göstərilmiş şərtlər qövldən feilə [sözdən əmələ] gəlməzsə, Post və Teleqraf Nəzarəti Bierinq Cəmiyyətindən 100 faiz məbləği almalıdır.

- Hərbiyyə nazirinin kapitan Zaqorskinin dul qarısına maaş vermək haqqındakı təqriri isteması nəticəsində 20 milyonluq fonddan Hərbiyyə Nəzarətinə məzkurəyə [adı çəkilən qadına] təqaüd maaş olmaq üzrə verilmək üçün 5 min manat buraxılsın.

- Hərbiyyə nazirinin sabiq komandan miralay [polkovnik] İqnateviçin dul qarısına maaş verilməsi haqqındakı təqriri isteması nəticəsində 20 milyonluq fonddan Hərbiyyə Nəzarətindən məzkurəyə təqaüd maaş olmaq üzrə verilmək üçün 1000 manat buraxılması qərara alınmışdır.

- Hərbiyyə nazirinin məcruh [yaralı] əsgər Əmirqulu Əhməd oğluna maaş verilmək haqqındakı təqriri isteması nəticəsində 20 milyonluq fonddan Hərbiyyə Nəzarətinə məzkura verilmək üçün 3000 manat buraxılması qərara alınmışdır.

## İSTİQRAZ CƏMİYYƏTLƏRİ QURULTAYI

Dünən oktyabrın 15-də Xəzər Müstəhliklər [İstehlakçılar] İttifaqı “Kooperasiya”nın binasında Azərbaycan daxilindəki xırda istiqraz və əmanət cəmiyyətlərinin birinci qurultayı açıldı. Qurultayda 9 cəmiyyətdən 15 nəfər nümayəndə vardı ki, bunlardan 12-si türk idi.

Qurultay, ümumiyyətlə, sədarətə Əsədulla Axundzadəni və katibliyə Ələkbər Heydərzadə ilə Piçikyanı intixab edir [seçir]. Qurultay açıldıqda Yakobson “Kooperasiya” Zaqafqaziya Mərkəzi Kooperativ Qurultayı Şurası və Moskva Xalq Bankasının Tiflis şöbəsi tərəfindən qurultayı təbrik edir. Sonra sabiq xırda istiqraz cəmiyyətləri müfəttişi İşxanyan və Heydərzadə istiqraz cəmiyyətlərinin sabiqdəki və hal-hazırdakı vəziyyətləri haqqında məlumat verib deyirlər ki: Hal-hazırda bütün Azərbaycan kəndliləri maddi cəhətdən artıq üsrət [çətinlik] çəkib böhranlı bir hal keçirmədədirlər. Axır vaxtda baş vermiş hərc-mərclik sayəsində kəndlilərin evləri və yerləri tarmar olduğundan, hərə bir yerə qaçmışdılar. İndi isə yerlərinə qayıdıb işə başladıqda bunların nə malı, nə qarası və nə də kənd məişətində lazım olan müxəlləfatı [əşyaları] var.

Bundan əlavə, nəqliyyat pozğunluğundan naşi [ötrü] kəndçi öz məhsulatını bazara gətirə bilməyib, yerində möhtəkirlərə ucuz qiymətə satmağa məcbur olur. Əlbəttə, kəndçilər bu zülümdən qurtarmaları üçün kəndiləri təşəbbüsdə bulunmalı və özlərinə təşkilat yapmalıdırlar. Sabiqdə hökumət kəndlilərə yardım üçün xırda istiqraz cəmiyyətləri açıb kəndlilərə lazımi para və müxəlləfat buraxırdı. İndi isə böylə cəmiyyətlər olmadığından, bunları yenidən təşkil etməlidir. Təşkil olunacaq Xırda İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqı kəndlilərə hər növ para buraxılması üçün mənbə aramalı, kəndlilərin məhsulatını kəndi qüvvəsi ilə bazarlarda əlverişli qiymətə satmalı və kəndlilərə lazım olan müxəlləfatı onlar üçün ucuz qiymətə almalıdır.

Nümayəndələr məruzəni dinləyib özləri dəxi kəndlilərin indiki məişətindən acı həqiqətlər danışdılar.

Qurultay qət etdi ki, həmin iclasda Şura və İdarə intixab edilsin [seçilsin]. 1920 sənəsi yanvarın 1-nə kimi 35 min manat məxaric smetası təsdiq olunsun və İdarədən xahiş olunsun ki, tez bir zamanda Moskva Xalq Bankasının Tiflis şöbəsindən 4 milyon və Azərbaycan Dövlət Bankasından 5 milyon manat para borc alınıb kəndlilərə yardıma başlanılsın.

İclasın axırında nümayəndələr zeyldəki əşxası [aşağıdakı şəxsləri] İdarə və Şuraya intixab etdilər.

İdarəyə: 1) Axundov Əsədulla; 2) Əhməd Əsəd oğlu; 3) İşxanyan; 4) Heydərzadə Ələkbər, 5) Piçikyan. Bunlara namizədlər: 1) Ağaqulu Hüseynqulu oğlu və Lepexin.

Şuraya: 1) Knyaz Çeloqaya; 2) Məşhədi Əşrəf Kərimov; 3) Əbdülməhəmməd Hacı Əli oğlu; 4) Yakobson; 5) Xanzadyan. Namizədlər: 1) Cəbrayıl Mollaqulu oğlu; 2) Hacı Mirhüseyn Zeynalov.

## ZƏNGƏZUR MÜSƏLMANLARININ HALI

Mustafa bəy Əlibəyov təşrini-əvvəlin [oktyabrın] 12-də 80 nəfər Zəngəzur qaçqını ilə bərabər Bakıya varid olmuşdur [gəlmişdir]. Mümaileyh [adı çəkilən şəxs], Zəngəzur qəzasında müsəlmanların halı nə dərəcədə pərişan olduğunu təsvir etmək belə qabil deyil, deyə xəbər verir ki, türklər getdikdən sonra ermənilər intiqamçı dəstələri təşkil edib müsəlmanlara nə kimi cövr, cəfa, zülüm və sitəmlər etdiklərini söyləməklə tamam olmaz. Zəngəzur qəzasında ermənilər 110 müsəlman kəndi təxrib edib əhalisini yuvası dağılmış quş kimi pərakəndə salmışlardır. Bunların 80 qədəri qırılıb, qalanlarının 85 faizi ölümə məhkumdurlar. Atalar oğulsuz, bacılar qardaşsız, çocuqlar atasız səhralarda kollar dibinə pənah gətirirlər. 9 aydan bəri çöllərə pərakəndə olub çılpaq və yalavac gəzib ələfiyyat və ağac yar-

pağı ilə yaşayan bu fələkzədələr vəhşi kimi olub o qədər cövr və cəfalara düçar olmuşlar ki, uzaqdan bir insan gördüklərində vəhşi bir heyvan kimi qaçıb gizlənirlər.

Bir çox tam çılpaq qadınlar aclığın şiddətindən əmcəkləri əriyib sinələri ilə bərabər olduğundan, qabırğaları sayılır. Köylərdə qalan camaat da həkim və əlacsızlıqdan qırılmaqdadırlar. Bunlara kinənin bir atımını 100 manata satırlar. O da tapılmayır. Kəndlərdə genə asayiş bərpa olmamışdır.

Hər iki-üç gündən bir erməni-müsəlman köyləri arasında atışmalara təsadüf edilməkdədir.

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

- Bələdiyyə İdarəsi Bakı polismeysterinə müraciətən rica etmişdir ki, satış işlərini nizama salmaq üçün təyin edilmiş Bələdiyyə İdarəsi məmurlarına polis əzasının [üzvlərinin] müavinət etməsi haqqında lazımi binagüzarlıqda bulunulsun [sərəncam verilsin].

- Ticarət və Sənaye və Ərzaq Nəzarəti Bələdiyyə İdarəsindən Nəzarət yerləşən Lalayevin evindəki Şollar su hesabatının kirayənişinlər üçün ayrılmasını rica etmişdir. Bələdiyyə İdarəsi Nəzarətin təşəbüssatını Bələdiyyə işlərindən asılı əsbabdan naşi [səbəblərdən ötrü] rədd etmişdir.

- Nəşri-Maarif Cəmiyyəti Bələdiyyə İdarəsinə müraciətlə rica etmişdir ki, Cəmiyyətin 6-cı Nikolayevski pereulokda vaqe evindən lazım olmadığı üçün Şollar su musluğu [kranı] çıxarılsın.

Bələdiyyə İdarəsi Bakı qradonaçalnikinə məlum etmişdir ki, məzkur [deyilən] həyətdə olan su yolunda qoşun hissələri xəstə atları yıxayıb və suvarırlar. Binaenaleyh [buna görə], mümaniət [maneçilik] olmazsa, həman musluq oradan çıxarılsın.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Bələdiyyə İdarəsindən Azərbaycan Cümhuriyyəti Ünvan Təqvimi üçün məlumat istəmişdi. Bələdiyyə İdarəsi lazımi məlumatla kəndisinin fəaliyyəti tarixçəsini göndərmişdir.

- Bələdiyyə İdarəsi Bakı qradonaçalnikinin təliqəsinə [rəsmi məktubuna] cavabən xəbər vermişdir ki, Hərbi Hifzüssihhə [Gigiyena] və Hərbi Baytariyyə [Baytarlıq] mənzillərinə su yolu çəkmək haqqında hərbi general-qubernatora bilavasitə məlumat verilmişdir. Məzkur [adı çəkilən şəxs], su yolunun çəkilməsinin əsaslı əsbabdan naşi [əsaslı səbəblərdən ötrü] mümkün olmayacağını məlum etmiş.

**Dövləti Bankda**

Dövləti Bank Bələdiyyə İdarəsindən Bakı Şəhər İdarəsi tərəfindən buraxılmış kağız pullarının nümunəsini istəmişdir. Bələdiyyə İdarəsi pulun saxta və həqiqisini göndərmişdir.

**Konka qiymətinin artırılması**

Bələdiyyə məclisi qlasnısı Əsədulla Əhmədov təklif etmişdir ki, konka qiyməti 1 manat 80 qəpikdən 2 manata qədər artırılsın. Fəqət konka pulu icarədarı sənə axırında artıq məbləği cəmiyyəti-xeyriyyələr miyanında təqsim edilsin [arasında paylaşdırsın].





Təklif Bələdiyyə İdarəsində açıq səslə əksəriyyət qazanmışdır. Bələdiyyə İdarəsi məsələni Bələdiyyə Məclisinə idxal edəcəkdir.

**Dəlləklər ictiması**

Cümə günü, təşrini-əvvəlin [oktyabrın] 17-də, səhər saat 10-da Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın bürosunda (Fəhlələr Klubunun müqabilində) Bakı Müsəlman Dəlləklərinin İttifaqı təşəbbüsü ilə ümum müsəlman dəlləklərinin ictiması [yığıncağı] vaqe olacaqdır. İctimada Mirzəbala Məhəmmədzadə əhvali-hazirə haqqında və Həmkarlar İttifaqına dair məlumat bəyan edəcəkdir.

**Komisyon haqqında müzakirə**

Cümə günü, təşrini-əvvəlin 17-də, saat 12-də "Müsavat" firqəsi bürosunda "Müsavat"ın Təbliğat və Təşkilat Komisyonu haqqında müzakirə edilməsi təyin etmişdir. "Müsavat"ın hər şöbəsindən dəvət olunmuş bir nümayəndənin vəqti-müəyyəndə hüzuru mətlubdur [müəyyən edilmiş vaxtda hazır olması tələb edilir].

**"Müsavat"ın Ramana şöbəsi**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Ramana köy şöbəsi Ramanadan mədən dairəsinə köçürülməsinə cəhət, Bakı Komitəsi şöbə heyəti idarəsinə bir təbriknamə göndərərək, idarənin bundan sonra dəxi ciddi işləyib kəndi fəaliyyətini göstərməsini arzu və təmənna etmişdir.

**Parlaman komisyonlarında**

Ərazi və Əmlak Nəzarətindən Parlamanın Ərazi komisyonuna azərbaycanlıların torpaq cəhətincə təmin edilməsi haqqında təşrini-əvvəlin 15-də bir qanun layihəsi varid [daxil] olmuşdur.

Ərazi və Əmlak Nəzarətindən Parlamanın Ərazi komisyonuna meşələrin xüsusi meşə sahiblərindən alınıb hökumət əmlakı sırasına keçirilməsi haqqında təşrini-əvvəlin 15-də bir qanun layihəsi varid olmuşdur.

**Mütəəllimlər arasında**

Cümə günü təşrini-əvvəlin 17-də, saat 4 radələrində İttifaqi-Mütəəliminin [Məktəblilər İttifaqının] təcili iclası vaqe olacaqdır. Məsələlər ciddi olduğundan, üzvlərin vəqti-məzkurda [deyilən vaxtda] gəlmələri rica olunur. İclas Təzəpir məscidində, sabiq Qafqaz Müsəlman Mütəəlimlərinin Mərkəzi Komitə və fondunda olacaqdır.

*İdarə*

**Elmi sinematoqraf**

Valideyn krujokunun Edadi Məktəblərinin Mərkəzi Şurası cəmiyyəti "Filma"-nın iştirakı ilə cümə günü təşrini-əvvəlin 17-də, Bakı Birinci Edadi məktəbinin binasında 18-ci seans verəcəkdir.

Seansın məramnaməsi [proqramı]:

1) Daniyanın [Danimarkanın] dağları;
2) Şimalın mənzərəsi;
3) Fillərin işləməsi;
4) Oyuncaqların yapılması;
5) Tiflisdə ingilislərin yarışları;
6) Braziliyada qəhvənin ziraəti [becərilməsi];
7) Ovçunun hekayəsi (gülməli);
8) "Tit jinlint".

1-ci seans saat 11-də, 2-ci seans isə 12-də başlanacaqdır.

**Ticarət Məktəbi**

Bakı Ticarət Məktəbinin 1-ci sinfində bir ehtiyat şöbəsi də açılmışdır. Bu şöbədə tədris rusca olacaqdır. Şagird qəbul etmək üçün yer olmasına cəhət ərizələr qəbul olunur. İşbu təşrini-əvvəlin 20-də imtahan olacaqdır.

**Birjada**

Kerenski minlik 1.010-1.050 manata qədər, 250-lilik faizsiz və xırda kəndi qiymətindən 20 faiz əskikdir. Nikolay 500-lüyü 800-1.600 manata qədər, 100-lüyü 200-325 manata qədər və xırdası 50-90 faizə qədərdir. Osmanlı kağız lirəsi 200 manat və Tiflis parası 1 faizdir. Osmanlı altun lirəsi 780 manat, onluq qızıl 860 manat, imperial 600 manat və Atriş [Avstriya] qızılı 1.800 manatdır. Gümüş manat 80 manat və xırda gümüş para 28 manatdır. 5 tümən min manata gedir.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

**“Əhrar”da**

El firqəsi “Əhrar”ın ayın 17-də cümə günü saat 10-da “Əhrar” fraksiyonu odasında ictiması [yığıncağı] olacağı və bu ictimada nümayəndəmiz Əlibəyov Mustafa bəy Zəngəzur əhvalına dair leksiya oxuyacağı cəhətlə, bütün “Əhrar” firqəsi üzvlərinin və Parlaman fraksiyonları nümayəndələrinin hazır bulunması arzu olunur. Kənardan dinləmək arzusunda bulunanlar da gələ bilər.

*“Əhrar” fraksiyonu sədri müavini:*
*Muxtar [Əfəndizadə]*

**Könüllülər ştabından**

Son günlərdə Quba könüllü ştabına mənsub Yardım alayının da Bakı mühafizə taboru kimi cəbhəyə sövq olunacağı həvadisi intişar etməkdədir [xəbərləri yayılmaqdadır]. Bu həvadisin qətiyyən əsl və əsası olmayıb, könüllülərdən mütəşəkkil Yardım alayı daxili-şəhərdə icabı təqdirində [lazım gələrsə] ancaq asayişin mühafizəsi kimi xüsusatda istixdam edilə [xidmətə qəbul edilə] biləcəyi və bu xüsusda digər surətlə intişar edəcək bilcümlə həvadisin cümləsi qeyri-səhih olduğu elan olunur.

**Tağıyevin emalatxanasında**

Tağıyevin emalatxanasında işləyən fəhlələrin xahişlərinə görə, məhərrəm ayının 16-da Bakıdan Cavad bəy Məlik-Yeqanov, doktor Qənizadə, Yusif İbrahimli və Əliağa emalatxanaya gedib fəhlələri ümumi iclasa dəvət etmişlərdir. İclas məktəbin binasında axşam saat 4-də Qənizadənin sədarəti və Nikolay Albrandonun katibliyi ilə açıldıqda, işbu məsələlər məhəlli müzakirəyə qonulmuşdur:

1) Lənkəran məsələsi (bu məsələyə dair Cavad bəy müfəssəl bir məlumat verrmişdir);

2) Bahalıq münasibəti ilə fəhlələrin halı (işbu xüsusda söz verilmişdir ki, lazım gələn yerlərə müraciət edərək fəhlələrə yardım olunsun);

3) Fəhlələrin ricasına görə Emalatxana Komisyonu intixabı.

(Bu məsələ də qəbul edilib komisyona zirdəki əşxas intixab olundu [aşağıdakı şəxslər seçildilər]:

Qulaməli Eynullazadə, Haşım Əliquluzadə, Təvəkkül Həbibullazadə, İvan Dirmin, Bayram bəy İbrahimzadə və bunlara 6 nəfər müavin intixab olundular).

Axırda Qasım Nağıyevin haqqında müzakirə olduqda, ümum fəhlələr müttəhidülqövl olaraq [yekdilliklə] Qasım müqəssir olmayıb da ixrac edilib, bu cəhətə görə də Məsai [Əmək] nazirindən məzkurun müaf edilməsini [adı çəkilən şəxsin bağışlanmasını] rica ediriz dedilər.

İclas axşam saat 6-da tamam oldu.

## AZƏRBAYCANDA

**Zəngəzurda yeni hadisələr**

*Çıxar suzişli ahın övci-ərşə eyləsən nalə,*
*Səmada[n] ərzə əksəndaz olan fəryad lazımdır.*

Keçən sənədən başlanmış qanlı hadisələrdən Zəngəzur qəzasında 27 min müsəlman fələkzədələri bir ildən ziyadədir ki, ağaclara, daşlara pənah gətirib, acyalavac, min dürlü məşəqqətlərə düçar olmaqla get-gedə qırılıb tərk olmadadırlar. Qış fəsli hülulu [gəlib çatması] münasibətilə xəstəlikdən qurtulanları Zəngəzurda ermənilərin təcavüzündən yenə də top atəşinə məruz qalıb, daha bir sığınacaq bulammayıb, nə yapacaqlarını şaşırıb, istər-istəməz çoluq-çocuqlarını götürüb ətrafa dağılmaqdadırlar. O cümlədən Bakıya gələnləri də az deyildir. Şəhər vağzalında, Ramanada, Balaxanada və ələlümum [ümumiyyətlə] mədənlər dairəsində divarlar dibində yoldan ötüb-keçənlərin müavinətinə möhtac olanlara pək çox təsadüf edilir. Bunlardan Ümuri-Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] müraciət edənləri hər gün axşamadək boynunu burub müntəzir olandan maəda [gözləməkdən əlavə], “Get, sabah gəl” vədəsi ilə məyus geri qayıdırlar.

Ümumiyyətlə, Zəngəzur əhalisi, xüsusən qaçqınları pək fəna bir haldadırlar. Qaçqınların ədədi get-gedə təzayüd etməkdədir [artmaqdadır]. Zira Zəngəzurda Ararat hökuməti-zalimanəsinin müsəlləh [silahlı] nizamilərinin təcavüzü hal-hazırda davam edir. Yenə biçarə müsəlmanlar yurd-yuvalarından qovulub, köyləri yaxılıb, var-yoxları qarət olur. Yenə də Zəngəzur bir qan dəryası şəklini alır. Yenə də xunxar [qaniçən] daşnaklar əllərini məzlum müsəlmanların qanı ilə xizab etməkdən [yumaqdan; boyamaqdan] çəkinməyirlər.

150 mindən mütəcaviz [artıq] Zəngəzur müsəlmanlarının artıq səbir kasaları dolub, taqətləri tükənmiş. Diplomatlar masası üstündə həll edilməyən bu ufacıq məsələni Zəngəzur əhalisinin kəndi öhdələrinə buraxılmasını hökuməti-cəliləmizdən istida ediriz [uca hökumətimizdən xahiş edirik]. Böylə olduğu halda, yerli əhali erməni hökuməti-zalimanəsi qarşısında sinələrini qurşunlara hədəf edib birkərəlik bu qanlara xitam verib kəndi müqəddəratını həll etməyə qadirdir.

*Zəngəzur qaçqınlar vəkili:*
*Sadıq Axundzadə*

**Şamaxı qəzasında əkinçilik**

Dünyada yaşamaq, həyat və zindəganlıqdan [dolanışıqdan] mənfəətbərdar olmaq uğrunda zihəyat [canlı] olan məxluqat səy, cünbüş [tərpənmək], hərəkət əsəri göstərməyib donmuş və müncəmid [buz bağlamış] halətində durarsa, həddi-zatında [əslində], yaradılışında məknuz [gizlənmiş] giranmayə [çox dəyərli] bir cöv-

hərin feyiz və bərəkətindən məhrum olar. Bəti [hərəkətsizliyindən, yavaşlığından] və becərsizliyindən dolayı həyat aləmində və bəşəriyyət arasında quru bir görünüşdən siva [başqa], heç bir şeyə malik olammaz.

Təbiətdə böyümək, yüksəlmək, nəşvü-nüma bulmaq [inkişaf etmək] xassəsi vardır. Məsələn, vaxtilə düşünsək, biz bunu balaca uşaqlarda müşahidə edərdik. Nə üçün yaşı az uşaqlar bir az boy atınca qisim-qisim oyuncaqlara məşğul olub taxtadan, ağacdan ev tikirlər, dükan açırlar, qarğıdan at minib ötə-bəriyə çatırlar? Bütün bu tərpəniş, onlarda görünən hərəkat bir inqilabdır ki, böyümək, ucalmaq qüvvəsinin təsirindəndir. Əgər doğrudan-doğruya bu qüvvənin inanı [yüyəni], cilovu uşaqların ataları, böyükləri tərəfindən təlim-tərbiyəyə, kəsbə [işə, qazanca], hünərə döndərilərsə, o qüvvənin dərunundan xüruc edən nuri-istedad [daxilindən çıxan istedad işığı] böyük xariqələr vücuda gətirər. Biləks [əksinə], əhəmiyyət verilməyib şu fidanlar başlı-başına tərk edilərsə, nəşvü-nüma bulammaz.

Bizlərdə əkinçilik hali-ibtidaidədir [ibtidai bir haldadır]. Məmafih [bununla belə], əkinçilər böyümək üçün ziyadə çalışmaq istəyirlər. Zira onlar səy edirlər ki, ziraəti [kənd təsərrüfatını], əkini çoxaldıb geniş dolanacaq üzü görsünlər. Əkinçilərin gəlir mənbəyi ziraət ilədir. Evlərinə, ailələrinə lazım olan bütün mayehtacı [ehtiyac mallarını], məsələn, libası, qəndi, çayı, ayaqqabını, vəlhasil, hər bir şeyi bazarda aparıb satdığı buğdanın, arpanın pulu ilə tədarük edirlər.

Əgər yeganə istinadı olan bu mənbədən məhrum qalarsa, zindəganlıqdan bibəhrə olar. Əvət, əkinçinin varlanması, ziraət işlərində tərəqqi etməsi əkmək qüvvəsinin qövldən feilə çıxmasına [sözdən işə keçməsinə] bağlıdır.

Ziraət mövsümü hülul edir [gəlib çatır]. Lakin fəqir əkinçi əkməyə toxum, qazmağa alət, kifayət edəcək qədər də yer bulammayır. Taxılın bol və bərəkətli olmağı, əkinçilərin güzəran və məişətləri istənilərsə, bunların halı mülahizə olunmalıdır [nəzərə alınmalıdır]. Vəilla [yoxsa], böylələliklə, ziraət və əkinçilik işləri nəşvünüma bulammaz.

*Əlif. Əlif.zadə*

## GÜRCÜSTANDA

### Harbordun Jordaniyaya teleqramı

Hökumət rəisi Jordaniya general Harbord cənablarından aşağıdakı teleqrafı almışdır:

*"Mənim sizin şəhəriniz və hökumətinizi ziyarət etdiyim əsnada naxoş olmağınızdan dolayı sizinlə görüşə bilmədiyimə təəssüflər edirəm. Mən sizin məktubunuzu cənab [David] Qambaşidze təvəssütü [vasitəsi] ilə aldım və mənə olan məhəbbətinizdən dolayı təşəkkür edirəm. İki dəfə gürcü camaatı ilə rast gəlib görüşməyim və sizin nazirlərlə olan mülaqatım [söhbətim, əlaqəm] mənim və bizim heyətin nöqteyi-nəzərində son dərəcə xoşdur. Sizin tezliklə mərəzdən səhhətyab olub [xəstəlikdən sağalıb] öz işlərinizlə iştiğal etmənizə [məşğul olmağınıza] ümidvaram. Sizin nazirlər və camaat tərəfindən heyətimiz işlərində bizə göstərdikləri xidəmat və ehtiramatdan dolayı onlara səmimi təşəkkürümün ərz edilməsini zati-alilərinizdən rica və istirham [xahiş] edirəm."*

### Qaçaqçılıqla mübarizə

Qori, Telav, Duşet və Siqnax qəzalarında olan qaçaqçılıqla mübarizə etməkdən ötrü Daxiliyyə naziri ixtiyarına yarım milyon manat para buraxılmışdır.

### Amerika zabitlərinin vürudu

Təşrini-əvvəlin [oktyabrın] 13-də Tiflisə 10 nəfər Amerika zabitanı vürud etmişdir [gəlmişdir]. Bunlardan beşi polkovnik və beşi mayordur.

**Xəzər dənizində posta, sərnişin
və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası
Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi E. S. Karşteynbaum**

Maddi cəhətdən zəiflər üçün xüsusi güzəştdə bulunur. Diş çıxartmaq ağrı ilə 25 manat, diş çıxartmaq ağrısız 50 manat. Müalicə və doldurması 80 manatdan 100-ə kimi. Məsləhət 15 manat.

Ünvan: Quba meydanı yanında Sisianovski küçə nömrə 41, İsrafilovun evində. Telefon: 22-57.

*11449*

**Petroqraddan gəlmiş doktor
İshaq Avetisoviç Atayans
(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**"İslamiyyə" restoranı**

Qubernski küçədə "İslamiyyə" restoranı bu gündən etibarən mənim təhti-idarəmdə [idarəm altında] açılır. Restoranın hər bir nöqsanları rəf edilib [aradan qaldırılıb], mahir aşpazların təhti-idarəsində hər növ Asiya və Avropa təamları və hər bir qaydası ilə dəsti çilov kabab hazır edilir. Buz içində bir aydan ziyadə file və kabablıq əti saxlanır. Sanitarnı idarə tərəfindən təhqiq etmək istəyənlər restorana buyura bilərlər. Hər gün gündüzlər saat 12-dən 4-dək və axşamlar saat 7-dən 12-dək pianino çalınacaq və cümə günləri də Ələsgərin dəstəsi Şərq havacatını çalacaqdır. Möhtərəm müştərilərin bizdən məmnun qalacaqlarına əmin olduğumuz üçün bizi yaddan çıxartmayacaqlarına ümidvarız. Restoranda xüsusi kabinələr də vardır.

*Kamali-ehtiramla: İsmayıl Mahmudov*
*11458*

**Bakı Darülfünunu**

Elan edir ki, Darülfünunun Ali Tibbiyyə məktəbinə oktyabrın 20-dən etibarən ərizələr qəbul edilməyəcəkdir.

*Darülfünun rektorunun vəzifəsini ifa edən professor: A. M. Levin*
*T-288*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Sirk "Modern"**

səh. 301. "Cümə günü oktyabrın 17-ndə": qəzetdə "cümə" yerinə "pəncşənbə" getmişdir.

**Elan**

səh. 301. "dəniz kənarı Mirbabayevin evləri": Bakıda, indiki Azneft meydanında yerləşən və Azərbaycan Dövlət Neft Şirkətinə məxsus olan bina nəzərdə tutulur.

**Azərbaycan-Ermənistan münasibatı**

səh. 303. "sofizm": başdan yanlış prinsiplərə söykənən və məntiqli görünməklə birgə, həqiqətdən uzaq olan, insanları qəsdən yanıltmaq məqsədi güdən hiyləgər iddia.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 307. "dəhyek": onda-birlik məhsul vergisi.

"Senzovik Duması": yalnız müəyyən şərtləri daşıyan şəxslərin, xüsusən şəhərdə müəyyən qədər əmlaka sahib olanların seçilmək hüququna malik olduğu Duma.

**Məclisi-Müəssisan Seçkiləri Haqqında Qanun**

səh. 309. "Üçüncü bab": qəzetdə səhvən "Birinci bab" getmişdir.

**Teleqraf xəbərləri**

səh. 312. "Velikaya": qəzetdə "Beliko" kimi getmişdir.

**Türkiyədə**

səh. 317. "Babi-ali" (hərfən "uca qapı"): Osmanlı dövlətində Sədrəzəmin (Baş nazirin)





sarayına verilən ad; beynəlxalq münasibətlərdə "Osmanlı hökuməti" mənasında işlədilirdi.

**Vükəla Şurasında**

səh. 318. "Bierinq": XX əsrin əvvəllərində Bakı əhalisinə xidmət göstərən telefon şirkəti. Şirkət, Bakının telefon şəbəkəsini işlətmək və genişləndirmək öhdəliyi ilə 1907-ci ildə 20 illik müqavilə bağlamışdı.

**Bakı xəbərləri**

səh. 320. "Fəqət konka yolu icarədarı sənə axırında artıq məbləği cəmiyyəti-xeyriyyələr miyanında təqsim etsin.": Bu cümlə qəzetdə belə getmişdir: "Fəqət konka pulu icarədarı sənə axırında artıq məbləği cəmiyyəti-xeyriyyələr miyanında təqsim edilsin."

səh. 321. "edadi": təhsildə ali məktəbdən əvvəlki mərhələyə məxsus məktəb.

**Azərbaycanda**

səh. 323. "Çıxar suzişli ahın övci-ərşə eyləsən nalə / Səmada ərzə əksəndaz olan fəryad lazımdır": "Nalə çəksən, ürək yandıran ahın göyün ən yüksək nöqtəsinə çıxar; Səmada əks-səda verib təzədən yerə qayıdan fəryad lazımdır."

səh. 324. "qövldən feilə çıxmasına": qəzetdə "qüvvədən feilə çıxmasına" getmişdir.

**"İslamiyyə" restoranı**

səh. 326. "Ələsgərin dəstəsi": çox güman ki, xanəndə Ələsgər Abdullayev nəzərdə tutulur.

**Bakı Darülfünunu**

səh.326. "A. M. Levin": qəzetdə "A. İ. Levin" getmişdir.